

## OQTAY İSMAYILLI

# QALSIN PƏRDƏ ÜSTÜNDƏ

Dünyadan doğmalıq duya bilmirəm,
Beşik də üstündə, gor da üstündə.
Həyatı hədiyyə saya bilmirəm,
Çər də üstündədir, çor da üstündə.

Arzum boy atıbdır düz cənnətəcən,
Amma imkanlarım boyum ilə tən.
"Uç" deyirlər, axı necə uçum mən? -
Bura tikanlıqdır, tor da üstündə.

İnsan insanlığı bəyənmir niyə?
Yarı divə dönür, yarı mələyə.
Qoymurlar cahanı pak eləməyə,
Su da üstündədir, kir də üstündə.

Ürəyim deyir ki, yu kainatı,
Yəni pak edərmi su kainatı?
Kənara çəkimmi bu kainatı? -
Qorxuram, gedəcək Yer də üstündə.

Adam vəhşi kimi adamı didir,
Yer qanlar içində üzən gəmidir.
Deyirlər, bu dünya cənnət kimidir,
Mən ki gəlib düşdüm dərdə üstündə.

Gərdişin işində kim qüsur tapar,
Mini qılınc qapıb üstünə çapar.
Cırsam, dünya boyu qiyamət qopar,
Qoy qalsın çox şeyin pərdə üstündə.